

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 71 (21.732)

*15 aprel 2017-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi yanında Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət İdarəsinin yaradılması barədə

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikasında əyar nəzarətinin daha da təkmilləşdirilməsi məqsədi ilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi yanında Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət İdarəsi yaradılsın.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

2.1. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi yanında Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət İdarəsinin Əsasnaməsini təsdiq etsin;

2.2. bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 14 aprel 2017-ci il*

## Kəngərli rayonunda yeni uşaq bağçası istifadəyə verilmişdir





Naxçıvan Muxtar Respublikasında uşaqların əlverişli sosial mühitdə böyüməsi diqqətdə saxlanılır. Müasir uşaq bağçaları istifadəyə verilir, uşaqların fiziki və əqli inkişafı, istedad və bacarıqlarının üzə çıxarılması, asudə vaxtının və tərbiyəsinin düzgün təşkili sahəsində ardıcıl tədbirlər görülür.

Aprelin 14-də Kəngərli rayonunun Qıvraq qəsəbəsində yeni uşaq bağçası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov çıxış edərək demişdir ki, 2016-cı ildə aparılan tikinti, yenidənqurma və təmir işlərindən sonra rayonun Yurdçu kəndində məktəb binası, kənd və xidmət mərkəzləri, avtomobil yolu, Qıvraq qəsəbə tam orta məktəbi, Akademik Zərifə xanım Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbi, Böyükdüz kəndində Azərbaycan Vətən Müharibəsi veteranı üçün fərdi mənzil, Xok və Böyükdüz kəndlərində 117 hektar torpaq sahəsini əhatə edən yeni qapalı suvarma şəbəkəsi istifadəyə verilmişdir. Hazırda Qarabağlar Türbə Kompleksində elmi və tarixi əsaslarla bərpa işləri aparılır, rayon mərkəzində 7 mərtəbədən ibarət 48 mənzilli yaşayış binası tikilir. Bundan başqa Böyükdüz kəndi ərazisində 400 hektar torpaq sahəsini əhatə edən yeni qapalı suvarma şəbəkəsi də qurulacaqdır. Tikinti-quruculuq işlərinin davamı olaraq Kəngərli rayonunda müasir uşaq bağçasının istifadəyə verilməsi də rayon ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanır. İcra başçısı Kəngərli rayonunun hərtərəfli inkişafı sahəsində həyata keçirilən tədbirlərə görə minnətdarlıq etmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Kəngərli rayonunun Qıvraq qəsəbəsində 224 yerlik uşaq bağçasının istifadəyə verilməsi münasibətilə kollektivi və valideynləri təbrik edərək demişdir: "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 18-ci maddəsinə əsasən uşaq bağçaları məktəbəqədər təhsil müəssisəsi və təhsilin ilk pilləsi kimi uşaqların erkən yaş dövründən intellektual, fiziki və psixi inkişafını, istedad və qabiliyyətinin üzə çıxarılmasını, estetik tərbiyəsini təmin edir. Ölkəmizdə dövlət uşaq siyasətinin tərkib hissəsi kimi uşaqların sağlam böyüməsi istiqamətində lazımi tədbirlər görülür. Uşaq bağçalarının tikilib istifadəyə verilməsi bu tədbirlər sırasında xüsusi yer tutur.

Ali Məclisin Sədri demişdir: Son illər Naxçıvan Muxtar Respublikasında 3-ü hərbi şəhərciklərdə olmaqla 21 uşaq bağçası tikilərək istifadəyə verilmiş, bağçalarda uşaqların məktəbəqədər tərbiyəsinin təşkili və sağlam böyümələri üçün müasir şərait yaradılmışdır. Həmçinin dövlət uşaq siyasətinin davamı olaraq muxtar respublikada 2016-cı tədris ilindən başlayaraq 5 yaşlı uşaqlar həftədə 3 dəfə olmaqla ümumtəhsil məktəblərində məktəbəhazırlıq qruplarına gedirlər. Bu da uşaqların birinci siniflərə hazır gəlmələrinə xidmət edir.

Qeyd olunmuşdur ki, bağçalara müxtəlif yaş qrupundan olan uşaqlar cəlb olunur, onların intellektual inkişafı ilə yanaşı, estetik tərbiyəsi və düzgün qidalanması da diqqətdə saxlanılır. Uşaqların maraqlarına uyğun oyunlar və tədbirlər keçirilir, onların istedad və qabiliyyətləri üzə çıxarılır. Bu mənada müasir uşaq bağçalarının istifadəyə verilməsi ölkəmizin gələcəyi olan uşaqların əqli, psixoloji və fiziki cəhətdən sağlam böyüməsinə hesablanıb. Eyni zamanda uşaq bağçalarının tikilməsi ailələrə dəstəkdir. Xüsusilə işləyən valideynlər və aztəminatlı ailələr uşaqlarını rahatlıqla bağçalara etibar edirlər. Sağlamlıq imkanları məhdud uşaqların bağçalara cəlbi isə onların erkən yaşlardan cəmiyyətə inteqrasiyasına imkan verir. Görülən bu işlər və yaradılan şərait isə cəmiyyətdə bütün uşaqların məktəbəqədər tərbiyəsinin təşkilinə imkan verir.



Ali Məclisin Sədri demişdir: Bu gün istifadəyə verilən Qıvraq qəsəbə uşaq bağçasına 160 uşaq cəlb olunmuş, 40 nəfər işlə təmin edilmişdir. Kollektiv yaradılan şəraitdən səmərəli istifadə etməli, uşaqların tərbiyəsi, sağlam qidalanması, intellektual və fiziki inkişafı düzgün təşkil olunmalı, onlar gələcək təhsilə hazırlanmalıdırlar. Dövlətin bu sahədə həyata keçirdiyi tədbirlər Kəngərli rayonunda da öz nəticəsini verməli, bağçada tərbiyə olunan uşaqlar gələcəkdə cəmiyyətimizin sağlam üzvünə çevrilməlidirlər.

Ali Məclisin Sədri bu işlərin həyata keçirilməsində kollektivə uğurlar arzulamış, bağçanın tikintisində əməyi olanlara təşəkkür etmişdir.

Bildirilmişdir ki, yeni yaradılan uşaq bağçası zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarətdir. Bağçada 2 körpələr, 3 orta, 3 böyüklər və 3 məktəbəhazırlıq qrupları olmaqla, ümumilikdə, 11 qrup fəaliyyət göstərir. Ən müasir infrastrukturla təchiz edilən bağçada uşaqların təlim-tərbiyəsi və gələcəyin sağlam vətəndaşları kimi yetişmələri üçün hər cür şərait yaradılmış, hər qrup üçün yataq otaqları, yemək və oyun zalları, tədbirlər zalı, valideynlər otağı, tibb otağı, mətbəx, ərzaq anbarı, camaşırxana və digər otaqlar istifadəyə verilmişdir.

Validеynlərdən Səbinə Həsənova uşaq bağçasında yaradılan şəraitə görə ailələr adından minnətdarlıq edərək demişdir: Kəngərli rayonunda uzun illər uşaq bağçası

*Ardı 2-ci səhifədə*

fəaliyyət göstərmirdi. Bu gün müasir uşaq bağçasının istifadəyə verilməsi ailələrin, hər bir valideynin və uşaqların böyük sevincinə səbəb olub. Artıq işləyən anaların rahatlığı təmin edilib. Çünki uşaqlarımızı müasir məktəbəqədər tərbiyə müəssisəsinə etibar edəcəyik. Yeni uşaq bağçası həm gələcəyimiz olan uşaqlara, həm də ailələrə göstərilən qayğının daha bir ifadəsidir.

Ali Məclisin Sədri bağçada yaş qruplarına uyğun təlim-tərbiyə qaydalarının tətbiq olunması, valideyni işləyən, aztəminatlı ailələrdən olan və sağlamlıq imkanları məhdud uşaqların qəbuluna üstünlük verilməsi, uşaqların mütəmadi tibbi müayinədən keçirilməsi və sağlam qidalanmasına diqqət yetirilməsi barədə tapşırıqlar vermişdir.

Tədbirlər zalında uşaqlar Azərbaycan Respublikasının Dövlət Himnini ifa etmiş, ulu öndər Heydər Əliyevə həsr olunmuş şeirlər söyləmiş, mahnılar oxumuşlar.

Ali Məclisin Sədri uşaqlarla xatirə şəkli çəkdirmişdir.

Uşaq bağçasının həyəti də abadlaşdırılmış, istirahət guşəsi və uşaq əyləncə qurğuları qoyulmuşdur.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Amalı xalqa xidmət olan qayğıkeş həkim, müdrik alim



***Akademik Zərifə xanım Əliyeva mənalı və zəngin bir həyat yolu keçmişdir. O, qədim Naxçıvan diyarında, adlı-sanlı ziyalıların vətəni olan Şahtaxtı kəndində, görkəmli alim və siyasi xadim Əziz Əliyevin ocağında dünyaya göz açmışdır. Uşaqlıq və ilk gənclik illəri Şahtaxtıda keçən Zərifə Əliyeva bu kəndin maarifçi mühitinin işıqlı ənənələrindən faydalanmışdır.***

Zərifə xanım 1942-ci ildə Bakı şəhərində orta məktəbi əla qiymətlərlə bitirərək Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuş, 1947-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirdikdən sonra oftalmoloq ixtisasını seçmişdi. Lakin Zərifə xanım bilirdi ki, oftalmoloq ixtisası üzrə kamil mütəxəssis olmaq üçün institutda aldığı təhsil kifayət etmir. Bu məqsədlə o, institutu bitirdikdən sonra Moskvaya getmiş və orada Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda məşhur alimlərin iş təcrübəsi ilə tanış olmuş, praktik vərdişlərə yiyələnmiş, oftalmoloq ixtisası üzrə mütəxəssis kimi təkmilləşmə hazırlığı keçmiş, iki ildən sonra Vətənə qayıtmışdır. 1949-cu ildən etibarən Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi vəzifəsində çalışmağa başlamışdır. Bununla da, onun elmi axtarışlarının, gələcək müvəffəqiyyətlərinin təməli qoyulmuşdur. O, fəaliyyət göstərdiyi Göz Xəstəlikləri İnstitutunun aspiranturasına daxil olmuş, elmi axtarışları dövründə özünə rahat yollar seçmək stereotipindən uzaq olmağa çalışaraq, vətənə, xalqa, həqiqi mənada, xeyir verə biləcək ən çətin sahələrdə özünü sınamağa can atmış və istəyinə nail olmuşdur.

İkinci Dünya müharibəsinin təzəcə başa çatdığı illərdə keçmiş SSRİ-nin çox yerində olduğu kimi, Azərbaycanda da traxoma xəstəliyi yenidən baş qaldırmışdı və ona qarşı aparılan ara-sıra mübarizə tədbirləri o qədər də effektli təsir göstərmirdi. Xalqın sağlamlığının vacibliyini ön plana çəkən gənc alim ölkəmizi bürümüş yoluxucu göz xəstəliklərin qarşısını almaq və bu xəstəliklərin ləğvinə nail olmaq üçün yollar axtarırdı. O dövrdə Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünyada 400 milyona qədər insan traxoma xəstəliyinə tutulmuş, bunun nəticəsində 80 milyon insan kor olmuşdu. Çünki traxoma xəstəliyinin müalicəsinə güclü təsirə malik dərman preparatları hələ mövcud deyildi. İkinci Dünya müharibəsindən yenicə çıxmış ölkənin iqtisadi vəziyyəti də belə preparatların əldə olunmasına nikbin yanaşmağa əsas vermirdi. Bu kimi problemlərlə üzləşən gənc tədqiqatçı Zərifə xanım Əliyeva ruhdan düşməyərək axtarışlarını davam etdirmiş, ölkə daxilində yayılmaqda olan traxoma xəstəliyinin qarşısını almaq üçün diaqnostika, müalicə və profilaktika üsullarının kompleks şəkildə tətbiqi istiqamətində mühüm tədbirlər hazırlamış və həyata keçirməyə başlamışdır. Onun başlıca məqsədlərindən biri də Azərbaycanda traxoma xəstəliyinin müalicə və profilaktikasını vaxtında və yetərincə həyata keçirməkdən, bu prosesin elmi istiqamətlərini müəyyənləşdirərək səhiyyə praktikasına tətbiqini reallaşdırmaqdan ibarət olmuşdur.

Gənc oftalmoloq traxoma ilə əlaqədar real vəziyyəti əyani olaraq müşahidə etmək üçün Azərbaycanın bütün rayonlarına gedərək göz xəstəliklərinin regional lokallığını müəyyənləşdirir, xəstəliyin epidemioloji xüsusiyyətlərini araşdırır, xəstələrə öz məsləhətlərini verir, bir sıra göz xəstəliklərinin profilaktika və müalicəsi haqqında maarifləndirici söhbətlər aparırdı. Yalnız bundan sonra dissertasiya müdafiə etməyi qərara alan alim 1959-cu ildə yerinə yetirdiyi elmi istiqamətlərinin nəticələrinə əsasən "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusu üzrə namizədlik dissertasiyası müdafiə edərək, tibb elmləri namizədi elmi dərəcəsinə layiq görülmüşdür.

Zərifə xanım 1960-1967-ci illərdə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışaraq, fəaliyyət göstərdiyi elm ocağında oftalmologiya elminin bütün sahələrinin inkişafına yaxından kömək göstərmiş, bu istiqamətin tərəqqisinə öz dəyərli töhfələrini vermişdir. SSRİ Ali Attestasiya Komissiyası 1963-cü ildə Moskvaya göndərilmiş təqdimat əsasında onun oftalmologiya ixtisası üzrə "Böyük elmi işçi" elmi adını təsdiq etmişdir.

Alim ardıcıl olaraq yerinə yetirdiyi elmi-tədqiqat işləri ilə yanaşı, pedaqoji fəaliyyətini də davam etdirirdi. Belə ki, o, 1967-ci ildən etibarən Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasında pedaqoji fəaliyyətə başlamış, əvvəlcə kafedranın dosenti, sonra professoru, daha sonra isə həmin kafedranın müdiri vəzifələrini yerinə yetirərək, həkimlərin hazırlıqlarının tədris-metodik göstərişlərə uyğun şəkildə aparılmasına əlverişli şərait yaratmış, müxtəlif mövzulu monoqrafiyaların, tədris-metodik göstərişlərin, dərs vəsaitlərinin yazılmasına böyük əmək sərf etmişdir. Onun Sovet İttifaqında hələ o dövrdə böyük nüfuz qazanmış Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri üzrə SSRİ-nin müxtəlif guşələrindən gəlmiş və təkmilləşmə kursu keçən həkimlərlə apardığı mühazirə və praktik məşğələlərin əsasını tibb elmində əldə edilən yeniliklərin şərhi, praktik vərdişlərə yiyələnmənin istiqamətləri, müasir tibbi cihazların gündəlik təcrübədə tətbiqi üsullarının dərindən mənimsənilməsi kimi mühüm elmi istiqamətlər təşkil edirdi.

Görkəmli alimin aktual problem həlli yollarında apardığı səmərəli işlər tezliklə öz bəhrəsini vermiş və o, 1976-cı il may ayının 27-də M.Helmholts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda "Azərbaycanın bəzi kimya sənayesi müəssisələri işçilərində görmə orqanının vəziyyəti" mövzusunda dissertasiya müdafiə edərək tibb elmləri doktoru elmi dərəcəsinə layiq görülmüşdür. Dissertasiya müdafiəsi günü alim özünün tutarlı əyani dəlillərə əsaslanan nüfuzedici çıxışında elmi istiqamətlərinin üstünlüklərini, elmi kamilliyini, cəsarətli eksperimentatorluq bacarığını Moskvada keçmiş SSRİ-nin məşhur oftalmoloqları qarşısında bir daha təsdiq etmişdir. Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, Piroqov adına II Moskva Tibb İnstitutunun Göz xəstəlikləri kafedrasının müdiri, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı A.R.Nesterov akademik Zərifə Əliyevanın doktorluq dissertasiyasının müdafiəsi gününü xatırlayaraq yazırdı: "Həmişə olduğu kimi, Helmholts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutu yanındakı İxtisaslaşdırılmış Şuranın iclası adət etdiyimiz rəsmi qaydada başladı. Kürsüyə qarasaçlı, irigözlü, qaynar baxışlı bir qadın qalxdı. Onun nitqi dəqiq və aydın tələffüzü ilə, ən çətin məsələləri belə, sadə dildə ifadə etmək bacarığı ilə seçilirdi. O, məruzənin ayrı-ayrı məqamlarına rəngli slaydlarla, qrafiklərlə, cədvəllərlə aydınlıq gətirirdi. Zərifə Əziz qızının məruzəsi şurada diqqətlə dinlənildi. Rəsmi və qeyri-rəsmi opponentlərin rəyləri yekdil idi. Gizli səsvermə yolu ilə şura yekdilliklə Zərifə Əziz qızı Əliyevaya tibb elmləri doktoru alimlik dərəcəsi vermək barədə qərar çıxardı".

Doktorluq dissertasiyası müdafiəsindən bir qədər sonra Zərifə xanım Əliyeva müsabiqə yolu ilə professor vəzifəsinə seçilmiş və qısa müddətdə onun çoxdan layiq olduğu bu elmi adı da təsdiq edilmişdir. Professor Zərifə Əliyeva 1979-cu ildə Bakı məişət kondisionerləri zavodu nəzdində Azərbaycan Elmlər Akademiyası Fiziologiya İnstitutunun "Görmə orqanının fiziologiyası və peşə patologiyası" adlı unikal bir laboratoriyanın yaradılmasına və onun səmərəli fəaliyyət göstərməsinə nail oldu. Zərifə xanım Əliyevanın elmi-tədqiqat işlərinin nəticələri alimin "Şin istehsalında gözün peşə patologiyası", "Xroniki yod intoksikasiyası zamanı oftalmopatologiya", "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" kimi monoqrafiyalarında və digər elmi əsərlərində özünün dolğun əksini tapmışdır.

1981-ci ildə ölkəmizin tibb elminin, səhiyyə sisteminin tarixində son dərəcə mühüm bir hadisə baş vermişdir. Moskvadan alınan xəbərdə qeyd edilirdi ki, Azərbaycan alimi Zərifə Əziz qızı Əliyeva görmə orqanının peşə patologiyası sahəsində apardığı silsilə elmi-tədqiqat işlərinin dəyərli nəticələrinə görə SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdür.

Zərifə xanım Əliyeva 1982-ci ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasının müdiri vəzifəsinə, 1983-cü ildə nəzəri və təcrübi təbabətdə qazandığı müvəffəqiyyətlərə, alınan elmi nəticələrinin səhiyyə praktikasında geniş tətbiqinə, yüksəkixtisaslı tibb kadrlarının hazırlanması yolunda göstərdiyi dəyərli xidmətlərə görə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. O, Azərbaycan oftalmoloqları arasında Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilmiş ilk alimdir.

Zərifə xanımın elmi-tədqiqat işlərinin mövzu dairəsi çoxşaxəli və genişdir. O, görmə orqanlarının virusla zədələnməsinə, bu sahədə aparılan müalicə-profilaktika tədbirlərinə silsilə işlər həsr etmişdir. Onun "Herpetik göz xəstəliyi", "Ağır virus konyunktivitləri" və sair əsərləri bu qəbildəndir.

Akademik Zərifə Əliyeva çoxsaylı elmi əsərlərin, monoqrafiya, səmərələşdirici təklif və dərs vəsaitlərinin müəllifi olmuşdur. Görkəmli alim gənc nəslin təlim-tərbiyəsində, yüksək səviyyəli həkim-oftalmoloqların, professional elmi kadrların yetişdirilməsində böyük xidmətlər göstərmişdir. O, onlarca elmlər doktoru və elmlər namizədinin elmi rəhbəri və məsləhətçisi olmuş, böyük bir elmi məktəb yaratmışdır. Təkcə Azərbaycanda deyil, onun hüdudlarından kənarda da görkəmli alim kimi tanınan Zərifə Əliyeva oftalmologiya elmində əldə etdiyi nailiyyətlərə, xalqımızın sağlamlığı keşiyində dayanan çoxsaylı həkim-oftalmoloqların yetişdirilməsində göstərdiyi əvəzsiz xidmətlərinə görə Azərbaycanın "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Akademik həm də keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini kimi fədakarcasına çalışmış, bir sıra xarici ölkələrdə səmərəli görüşlər keçirərək dəyərli çıxışlar, məruzələr etmiş, dünya xalqlarını sülhə, əmin-amanlığa səsləmişdir. O, respublika "Bilik" Cəmiyyəti İdarə Heyətinin, keçmiş SSRİ-nin Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin, Moskvada çıxan "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü olmuşdur.

Zərifə xanım mətbuatda həkim etikası problemlərinə dair maraqlı məqalələr dərc etdirmişdir. Həmin məqalələrdən birində o yazırdı: "Əsl həkim yalnız o şəxsdir ki, xəstənin əzablarını öz əzabları bilir və onun üçün sağalıb evinə qayıtmış insanın təbəssümü ən yüksək mükafatdır. Vicdan əsas hakiminizdir. Ən çətin məqamda və ən xoş saatımızda o, bizimlə üzbəüz dayanıb soruşacaq: Sənin ağ xalat geyinməyə haqqın varmı?"

Ömrün mənasını xalqına xidmətdə görən Zərifə xanım Əliyeva həm də böyük ana, vəfalı ömür-gün yoldaşı idi. Çünki Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ömür-gün yoldaşı və müstəqil Azərbaycanın yeni inkişaf mərhələsinə çıxaran ölkə Prezidenti cənab İlham Əliyevin anası olmaq bir qadın üçün böyük xoşbəxtlikdir. Zərifə xanımın elmi fəaliyyətini yüksək qiymətləndirən dahi rəhbər deyirdi: ***"Zərifə xanımın tibb elmi sahəsində xidmətlərindən biri də göz müalicəsi, tədqiqatı idi. Mənə belə gəlir ki, onun iki dəyərli irsi vardır. Birincisi, Azərbaycanda ilk dəfə deontologiyanı bir elm kimi meydana atıbdır. İkincisi, Zərifə xanım çalışıb ki, bizim gələcək nəsilləri irsi xəstəlikdən xilas etsin, sağlamlaşdırsın".***

Akademik Zərifə xanım Əliyeva 1985-ci il aprel ayının 15-də əbədiyyətə qovuşmuşdur. İllər bir-birini əvəz etsə də, əvəzolunmaz alimin əziz xatirəsi heç vaxt yaddan çıxmır, daim ehtiramla yad edilir. İndi onlarla məktəb, xəstəxana, poliklinika, bağ və parklar, küçələr akademik Zərifə xanım Əliyevanın adını daşıyır. Onun xatirəsinə ucaldılan büst və abidələr görkəmli alimə və əsl İnsana olan ehtiramın və məhəbbətin tükənməz təzahürüdür. Akademik Zərifə Əliyeva özünün səmimiliyi, xeyirxahlığı, insansevərliyi, vətənpərvərliyi, bəşəri duyğuları ilə xalqımızın qəlbində əbədi yaşayacaqdır.

***Naxçıvan Muxtar Respublikası***
***Səhiyyə Nazirliyinin***
***mətbuat xidməti***

# "Behbud ağa Şahtaxtinski: sənədlər və materiallar" kitabının təqdimatı olub






***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində "Behbud ağa Şahtaxtinski: sənədlər və materiallar" kitabı nəşr olunmuşdur.***

Aprelin 14-də AMEA Naxçıvan Bölməsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurasının təşkilatçılığı ilə "Behbud ağa Şahtaxtinski: sənədlər və materiallar" kitabının təqdimatı olmuşdur.

AMEA Naxçıvan Bölməsinin sədri, Bilik Fondunun Himayəçilik Şurasının üzvü, akademik İsmayıl Hacıyev tədbiri giriş sözü ilə açmış, "Behbud ağa Şahtaxtinski: sənədlər və materiallar" kitabının görkəmli diplomatın həyat və fəaliyyətinin öyrənilməsi sahəsindəki əhəmiyyətini diqqətə çatdırmış, belə qiymətli bir kitabın nəşrinə görə Ali Məclisin Sədrinə muxtar respublikanın ziyalıları adından dərin minnətdarlığını bildirmişdir.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin yanında Bilik Fondunun Himayəçilik Şurası Sədrinin müavini Əli Həsənov demişdir ki, Behbud ağa Şahtaxtinski Azərbaycanın dövlətçilik, diplomatiya və ictimai həyatında mühüm yer tutan böyük tarixi şəxsiyyətdir. Bu gün Behbud ağa Şahtaxtinski deyərkən gözlərimiz önündə əqidəli ziyalı və alovlu vətənpərvər dayanır. Qısa, lakin mənalı həyatını Azərbaycan naminə mübarizəyə həsr edən, bu mübarizənin ilk qaliblərindən və qurbanlarından olan Behbud ağa Şahtaxtinski üzərinə düşən tarixi missiyanı şərəflə yerinə yetirmişdir. Onun həyatı və mübarizəsi siyasi tariximizdə vətəndaşlıq və dövlətçilik etalonudur.

Vurğulanmışdır ki, Behbud ağa Şahtaxtinski gənc yaşlarından ictimai fəaliyyətə başlamış, "Hümmət" partiyasının sıravi üzvlüyündən Azərbaycan Xalq Komissarları Soveti sədrinin müavini vəzifəsinədək yüksəlmişdir. O dövrün bolşevik çoxluğundan fərqli olaraq Behbud ağa Şahtaxtinski xalqın milli oyanışı və müstəqilliyi uğrunda aparılan mübarizəyə dəstək vermiş, Azərbaycan əleyhinə yeridilən ayrı-seçkilik siyasətinə qarşı çıxmışdır. O, Rusiya Federasiyası hökumətinin sədri Vladimir Leninə göndərdiyi 1920-ci il 13 avqust tarixli məktubunda qəti etirazını bildirməkdən çəkinməyərək yazırdı ki, *"Naxçıvan diyarının daşnaklara verilməsi... Sovet Azərbaycanının hüquqlarını pozur. Naxçıvan diyarının xalqı ağlına gətirməzdi ki, Sovet Rusiyası əhalinin iradəsinə qarşı çıxacaq, diyarı daşnaklara verəcəkdir. Hərçənd ki, onların hakimiyyəti altında nəinki sovet quruluşu məhv edilir, həmçinin daşnak Ermənistanın ərazisində yüzlərlə müsəlman kəndlərinin başına gətirilənlər kimi, əhalinin fiziki mövcudluğuna açıq-aydın təhlükə yaranır".*

Göründüyü kimi, Behbud ağa Şahtaxtinskinin siyasi fəaliyyətində Azərbaycanın ərazi bütövlüyü və Naxçıvanın taleyi ilə bağlı mübarizə xüsusi yer tuturdu. Xalqımızın vətənpərvər oğlu Azərbaycanın hakim partiyasında və mərkəzi Moskva hökumətində rəhbər vəzifə tutmuş ermənilərin təzyiqi nəticəsində 1920-ci il dekabrın 1-də Zəngəzur və Naxçıvanın Ermənistana verilməsi barədə elan olunmuş qanunsuz bəyanatı hiddətlə qarşılamış, Naxçıvana gələrək yerli əhalini bu qərarın əleyhinə qaldırmış, Naxçıvanın Azərbaycanın tərkibində saxlanması ilə nəticələnən referendumun keçirilməsinə nail olmuşdur. Açıq demək lazımdır ki, bu referendum olmasaydı beynəlxalq Moskva və Qars müqavilələrində Naxçıvanın tarixi taleyinə birmənalı şəkildə aydınlıq gətirilməsi də mümkün olmayacaqdı. Ona görə də bu gün biz buna sadəcə səsvermə aktı kimi yox, mühüm hüquqi presedent yaradan tarixi və siyasi akt kimi yanaşmalı və dəyərləndirməliyik.

Əli Həsənov demişdir ki, Behbud ağa Şahtaxtinskinin taleyüklü xidmətlərindən biri də Azərbaycanın ilk milli diplomatı kimi beynəlxalq Moskva və Qars müqavilələrində Naxçıvanın statusu ilə bağlı məsələlərin həllində yaxından iştirak etməsidir. Onun peşəkar diplomatik fəaliyyəti və siyasi mübarizəsi nəticəsində bu müqavilələrlə muxtariyyət statusu əldə edərək sərhədləri müəyyənləşdirilən Naxçıvan diyarı Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanınmış və təsbit edilmişdir. Behbud ağa Şahtaxtinskinin fəaliyyətində siyasi publisistika da mühüm yer tutur. O, dövlət xadimi kimi mətbuatın rolunu düzgün qiymətləndirmiş, milləti oyatmaq, tarixi yaddaşı bərpa etmək üçün publisistikanın imkanlarından məharətlə istifadə etmişdir. Mürəkkəb və çətin dövrdə yaşayıb fəaliyyət göstərən Şahtaxtinski ağır, amma şərəfli ömür yaşamışdır. O, bütün şüurlu həyatını Azərbaycan xalqının mənafeyinə həsr etmiş, milli maraqları hər şeydən uca tutmuşdur. Bütün bunlara görədir ki, Azərbaycan üçün taleyüklü işlər görmüş Behbud ağa Şahtaxtinskinin xidmətlərinin sovet hakimiyyəti dövründə unutdurulması istiqamətində düşmən qüvvələr tərəfindən planlı iş aparılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Behbud ağa Şahtaxtinskinin xidmətlərini yüksək qiymətləndirərək demişdir: ***"Behbud ağa Şahtaxtinski heç nə etməsəydi belə, xalqımızın taleyində mühüm rol oynayan Moskva və Qars beynəlxalq müqavilələrinin imzalanmasında göstərdiyi vətənpərvərlik və siyasi uzaqgörənlik onun adını Azərbaycanın görkəmli şəxsiyyətləri ilə bir sırada qoymağa tamamilə əsas verir".***

Diqqətə çatdırılmışdır ki, ölkəmiz müstəqillik qazandıqdan sonra Şahtaxtinskilərə, xüsusən də Behbud ağa Şahtaxtinskiyə ikinci ömür verilmiş, unutdurulmuş bu görkəmli şəxsiyyət yenidən ictimai və elmi həyata qaytarılmışdır. Bütün bunlara görə muxtar dövlətimizin rəhbərinin həyata keçirdiyi ardıcıl tədbirlərə, göstərdiyi milli iradəyə borcluyuq. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 9 fevral tarixli Sərəncamı ilə Kəngərli rayonunun Şahtaxtı kəndində Şahtaxtinskilər Muzeyi yaradılmış, burada ayrıca guşədə Behbud ağa Şahtaxtinskiyə aid materiallar öz əksini tapmışdır. "Görkəmli dövlət xadimi və diplomat Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyinin keçirilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 21 fevral tarixli Sərəncamı ilə təsdiq olunmuş Tədbirlər Planına əsasən, 2011-ci il oktyabrın 12-də Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyi ilə bağlı konfrans keçirilmiş, Ali Məclisin təsis etdiyi "Naxçıvan" ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnalın xüsusi nömrəsi Behbud ağa Şahtaxtinskiyə həsr olunmuş, "Behbud ağa Şahtaxtinski və Qars müqaviləsi", "Gümrü, Moskva və Qars müqavilələri və Naxçıvanın taleyi" kitabları nəşr olunmuşdur. Bundan əlavə, "Vətən, sənə canım qurban" sənədli filmi, teleradio və qəzet materialları hazırlanmış, Naxçıvan şəhərində görkəmli dövlət xadiminin adını daşıyan küçə abadlaşdırılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurasının təşkilatçılığı ilə bu gün təqdimat mərasimi keçirilən "Behbud ağa Şahtaxtinski: sənədlər və materiallar" kitabı da görkəmli dövlət xadiminin həyat və fəaliyyətinin tədqiqi və təbliği sahəsində görülən işlərin davamıdır.

Ali Məclisin Sədri tapşırıq vermişdi ki, Behbud ağa Şahtaxtinskinin siyasi, diplomatik və publisistik fəaliyyəti ilə əlaqədar arxivlərdə yeni araşdırmalar aparılsın. Tapşırıq icra olunmuş, əldə edilən mühüm arxiv sənədləri toplu halında yığılaraq Azərbaycan dilinə tərcümə edilmişdir. Ali Məclis Sədrinin himayəsi ilə "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəşr olunan "Behbud ağa Şahtaxtinski: sənədlər və materiallar" kitabında 100-dən çox məktub, teleqram, məqalə, müqavilə, protokol və akt, həmçinin diplomatik yazışmalar yer almışdır. İlk dəfə geniş ictimaiyyətə Azərbaycan və rus dillərində təqdim olunan bu materiallar Behbud ağa Şahtaxtinskinin həyat yolunun və mübarizəsinin öyrənilməsində mühüm əhəmiyyətə malikdir. Şübhə yoxdur ki, "Behbud ağa Şahtaxtinski: sənədlər və materiallar" kitabı faydalı elmi mənbə kimi bundan sonra yeni tədqiqatların aparılmasına da öz təsirini göstərəcəkdir.

Bilik Fondunun Himayəçilik Şurası Sədrinin müavini Əli Həsənov "Behbud ağa Şahtaxtinski: sənədlər və materiallar" kitabını Naxçıvanşünaslığa dəyərli töhfə kimi yüksək qiymətləndirərək, kitabın ərsəyə gəlməsində əməyi olanlara, xüsusən də kitabın tərtibçisi akademik İsmayıl Hacıyevə təşəkkürünü bildirmiş, yeni nəşr münasibəti ilə alim və tədqiqatçılarımızı təbrik etmişdir.

Təqdimat mərasimində AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərlinin "Behbud ağa Şahtaxtinski: Naxçıvanın ərazi məsələsi və muxtariyyət statusu", İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevin "Behbud ağa Şahtaxtinski: teleqramlar və məqalələr", Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbin direktoru, Bilik Fondunun Himayəçilik Şurasının üzvü Namiq Məmmədovun "Behbud ağa Şahtaxtinski yaradıcılığında təhsil məsələləri", Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin Siyasi məsələlər üzrə şöbəsinin müdiri Nadir Cəfərovun "Behbud ağa Şahtaxtinski: müqavilələr və diplomatik fəaliyyəti", Naxçıvan Dövlət Universitetinin "Jurnalistika və dünya ədəbiyyatı" kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru Şəhla Şirəliyevanın "Behbud ağa Şahtaxtinskinin publisistikası" mövzularında çıxışları dinlənilmişdir.

Tədbir iştirakçılarına "Behbud ağa Şahtaxtinski: sənədlər və materiallar" kitabı təqdim olunmuşdur.

**"Şərq qapısı"**

# Azərbaycanın zərbxanalarına səfər

***Naxçıvanın orta əsr tarixinin mühüm aspektləri illərdir ki, aşkar olunmuş numizmatik kəşflər və arxeoloji xəzinələrdə əks olunmuşdur. Orta əsrlərə aid Naxçıvanqala, Ərəzin yaşayış məskəni və Naxçıvan xanlarının zərbxanaları Azərbaycanın yerli iqtisadiyyatı və İpək Yolu ticarət marşrutunun inkişafında mühüm rol oynayan nadir mədəni abidələrdəndir.***

Naxçıvanqala Naxçıvan şəhərində müdafiə divarları ilə möhkəmləndirilmiş istehkam kompleksidir. Hökmdar və feodal hakiminin əsas iqamətgahı olan qalada saray, xəzinə, inzibati və təsərrüfat binaları yerləşirdi. Qala müdafiə istehkamı kimi XVII əsrə qədər mövcud olmuş və Səfəvi-Osmanlı müharibələri zamanı güclü dağıntıya məruz qalmışdır.

Orta əsrlərdən bəri Azərbaycanın Naxçıvan bölgəsi mühüm ticarət mərkəzi olmuş, ərazi qızıl-gümüş pulların hazırlanması və zərb edilməsi mərkəzi kimi tanınmışdır. Fransız alimlərinin araşdırmaları və tarixi mənbələrə əsasən bugünkü Naxçıvan şəhərinin şimal hissəsi mühüm ticarət və sənətkarlıq mərkəzi olmuşdur. İran və Gürcüstanın müxtəlif şəhərləri, Bolqarıstan və Qara dəniz limanları, Kiçik Asiya şəhərləri ilə ticarət əlaqələrinin möhkəmləndirilməsi məqsədilə burada mühüm ticarət müqavilələri razılaşdırılaraq icra edilmişdir. Əmtəə istehsalının artımı və ticarətin inkişaf etməsi Naxçıvanda pul dövriyyəsi və pul istehsalı prosesinə də təsir etmişdir. Naxçıvana xas xüsusiyyətləri üzərində əks etdirən numizmatik materiallardan məlum olur ki, Böyük İpək Yolu üzərində yerləşən Naxçıvan Şərq və Qərb ticarət əlaqələrində strateji rol oynamış və XI-XII əsrlərdə regional ticarət əlaqələrinin daha da yaxşı inkişafına kömək etmişdir.




Naxçıvan nekropolları bizim eradan əvvəl IV-II əsrlərə aiddir və bu fakt da təsdiq edir ki, Azərbaycanın Naxçıvan bölgəsi qədim geostrateji maraqlar üçün strateji əhəmiyyətə malik olmuşdur.

XII əsrdə Atabəylər dövründə mis dirhəm və sikkələrin artımı müşahidə olunmuşdur. Naxçıvan zərbxanası Səfəvilər dövründə daha gərgin fəaliyyət göstərmiş, burada İsmayıl (1501-24), I Təhmasib (1524-76), II İsmayıl (1576-77), Məhəmməd Xudabəndənin (1578-87) adlarından yeni sikkələr, həmçinin Məhəmmədi, I Abbas və onun xəlifələrinin adından gümüş və mis sikkələr zərb olunmuşdur. Naxçıvan zərbxanası xanlıqlar dövründə də fəaliyyətini davam etdirmiş və adsız gümüş sikkələr zərb etmişdir.

Culfa rayonunda eyniadlı kəndin qərbində Naxçıvan-Ərəfsə avtomobil yolunun sağ tərəfində orta əsrlərə aid Ərəzin yaşayış yeri yerləşir. "Ərəzin" toponimi eramızdan əvvəl IX əsrə aid urartuluların mixi yazılı abidələrində xatırlanır. Urartuluların Culfa ərazisinə basqınları və Arsini şəhər əhalisinin onlara müqavimət göstərmələri tarixi mənbələrdə qeyd edilir. Bəzi tədqiqatçılar "Arsini" toponiminin indiki Ərəzin olduğu fikrini irəli sürürlər. Yaşayış yerinin ərazisi şimal-şərqdə və cənub-qərbdə quru çay vadisi ilə məhdudlaşır. 1989-cu ildə aparılan tikinti işləri zamanı abidənin bir hissəsi dağıdılmışdır. Yaşayış yerinin mərkəzi hissəsi 360 kvadratmetr sahədə qismən salamat qalmışdır. 1991-ci ildə ərazidə kəşfiyyat xarakterli tədqiqat işləri aparılarkən oradan yerüstü materiallar (əmək alətlərinin qırıqları, çəhrayı rəngli şirli və şirsiz saxsı qab parçaları, bişmiş kərpic, istehsal tullantıları və sair) aşkar olunmuşdur. Abidənin bu hissəsində mədəni təbəqə 2 metr qalınlığında saxlanılmışdır. Dağıdılmış hissələrdə qara rəngli kül dolu ocaq yerlərinə təsadüf olunmuşdur. Tapıntılar arasında misdən hazırlanmış bir ədəd qarmaq vardır.

Culfa rayonu və ümumiyyətlə, Naxçıvan Muxtar Respublikasının digər arxeoloji abidələri bəşəriyyət tarixi üçün mühüm olan nadir xəzinələri təmsil edir və beynəlxalq ziyarətçilər üçün turistik mərkəz hesab olunur. Bu səbəbdən də YUNESKO rəhbərliyi Naxçıvanın arxeoloji xəzinələrini diqqətlə nəzərə almalıdır.

**Peter TASE**
***11.04.2017***
***Amerika Birləşmiş Ştatlarının "Foreign Policy News" qəzeti***

# Növbəti əmək yarmarkasının ünvanı Culfa rayonu olub

***Culfa Rayon Məşğulluq Mərkəzinin direktoru Yalçın Hüseynov çıxış edərək muxtar respublikada əhalinin məşğulluğu istiqamətində görülən işlərdən danışıb.***

Bildirilib ki, əhalinin məşğulluğu ilə bağlı qəbul olunan dövlət proqramlarının uğurlu icrası Culfa rayonunda da öz bəhrələrini verməkdədir. Bölgədə yeni iş yerlərinin açılması, infrastrukturun ən müasir tələblər səviyyəsində qurulması sosial rifahın təmin olunmasına müsbət təsir göstərib. Mərkəz tərəfindən işaxtaran vətəndaşların əmək bazarına inteqrasiyasını asanlaşdırmaq və sürətləndirmək məqsədilə aktiv məşğulluq tədbirlərinin təkmilləşdirilməsi istiqamətində məqsədyönlü işlər aparılır.

Culfa Rayon İcra Hakimiyyəti başçısının müavini Kəmalə Səfərova çıxış edərək bildirib ki, son illərdə rayonun sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirilən tədbirlər əhalinin məşğulluğuna müsbət təsir göstərib, bunun da nəticəsində yüzlərlə insan müvafiq işlə təmin olunub. Keçirilən əmək yarmarkalarına işaxtaran əhalinin marağının artması bunu bir daha təsdiq edir.

Sonda yarmarkaya gələnlər onlara təqdim edilən vakant iş yerləri ilə tanış olublar. 14-ü özəl olmaqla, 26 təşkilatdan 138 boş iş yerinin çıxarıldığı yarmarkada 30 nəfərə işə göndəriş verilib, 3 nəfər isə peşə hazırlığı kursuna cəlb edilib.

Qeyd edək ki, analoji tədbirlər Kəngərli və Şahbuz rayonlarında da keçirilib.

**Nail ƏSGƏROV**

# Virus hepatitlərinə qarşı mübarizə tədbirləri gücləndirilir

***Naxçıvan Muxtar Respublika Xəstəxanasında müasir dövrün yoluxucu xəstəliklərindən olan hepatit B və C viruslarının müayinə, müalicə və profilaktikası barədə elmi-praktik konfrans keçirilib.***

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Tibbi yardımın təşkili şöbəsinin müdiri Süleyman Cəfərov tədbiri giriş sözü ilə açaraq bildirib ki, son illər yoluxucu xəstəliklərlə mübarizə və profilaktika sahəsində aparılan tədbirlər nəticəsində vaxtaşırı olaraq qonşu ölkələrdə və ümumiyyətlə, regionda müşahidə edilən epidemioloji gərginliyə baxmayaraq, muxtar respublikamızda epidemioloji sabitlik təmin edilib. Bununla yanaşı, nəzərə alınmalıdır ki, ötən əsrin sonlarından yayılmış hepatit virusları kəskin xroniki xəstəliklər törədərək insanların sağlamlığında ciddi pozuntular yaradır. Hepatit B və C virus infeksiyalarının qarşısının alınması tədbirlərinin genişləndirilməsi məqsədilə ötən il dekabrın 27-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində keçirilən müşavirədə konkret tapşırıqlar verilib. Hepatit B və C virus xəstələrinin müayinəsi, müalicəsi və xəstəliklərə qarşı mübarizə tədbirləri Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin kollegiyasında müzakirə olunaraq iş planına daxil edilib və xüsusi həkim komissiyası yaradılıb.

Mərkəzin həkim-infeksionisti Süleyman Cabbarov “Virus B, C hepatitlərinin yayılma yolları, diaqnostika və müalicəsi”, QİÇS-lə mübarizə şöbəsinin müdiri Hüseyn Mikayılov “Virus hepatitlərinin laborator diaqnostika kriteriyaları” mövzularında çıxış edərək qanla keçən infeksiyaların (QİÇS, HİV, eləcə də hepatit B və C) müayinəsinə muxtar respublikada 2006-cı ildən başlanıldığını, hazırda donorların, obliqat qrupların, bütün əməliyyat olunanlar və hamilələrin, nikaha daxil olanlar və könüllü müraciət edənlərin də müayinələrdən keçirildiyini bildiriblər.

Qeyd olunub ki, əməliyyat, doğuş aparılan əksər dövlət və özəl tibb müəssisələrində hepatit B və C viruslarının, eləcə də qanla keçən digər infeksiyaların ilkin olaraq ekspres metodla müayinələri icra edilib, 2017-ci ilin birinci rübü ərzində mərkəzdə stasionar müalicə alan bütün xəstələr yaxşılaşma ilə evə buraxılıblar.

Çıxışlar videosüjet, diaqram, cədvəl və slaydlarla müşayiət olunub, müzakirələr aparılıb. Konfransda iştirak edən həkim-infeksionist, terapevt, stomatoloq, ginekoloq, cərrah və laboratoriya işçilərini maraqlandıran suallar cavablandırılıb.

Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin baş həkimi Xeyrənsə Babayeva konfransa yekun vurub.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Ətraf mühitin qorunmasında ekoloji təhsil əhəmiyyətli rol oynayır

***Muxtar respublika ərazisinin 27 faizdən çoxunun xüsusi mühafizə olunması, fauna ehtiyatlarının qorunması məqsədilə ova qadağaların qoyulması, yaşıllıqların artırılması sahəsində görülən işlər nüfuzlu təşkilat və ekspertlər tərəfindən nümunə kimi qəbul edilir.***

Ötən illər ərzində görülən ekoloji tədbirlər çərçivəsində 14 min hektardan çox sahədə yaşıllaşdırma işləri aparılıb. Nəticədə, yaşıllıqların sahəsi 10 dəfədən çox artıb.

Əlverişli ekoloji mühitin yaradılmasında mühüm amillərdən biri də təbiət abidələrinin, bitki və heyvan ehtiyatlarının qorunması və bərpa edilməsidir ki, bu da xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması hesabına mümkündür. Muxtar respublikada bu sahədə də mühüm tədbirlər görülüb, xüsusi mühafizə olunan təbiət ərazilərinin şəbəkəsi xeyli genişləndirilib. 1969-cu ildə Ordubad Dövlət Təbiət Yasaqlığı, 2003-cü ildə Akademik Həsən Əliyev adına Ordubad Milli Parkı və Şahbuz Dövlət Təbiət Qoruğu, 2005-ci ildə “Arazboyu” Dövlət Təbiət Yasaqlığı, 2009-cu ildə “Arpaçay” Dövlət Təbiət Yasaqlığı yaradılıb. Bundan başqa, ölkə başçısının 2009-cu il 25 noyabr tarixli Sərəncamı ilə Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı fəaliyyətə başlayıb. Bütün bunlar təbiəti mühafizə ilə yanaşı, ekoturizmin inkişafına da əlverişli şərait yaradıb, insanlar arasında təbiətə, fauna və floraya diqqəti daha da artırıb.

Dünyanı bürüyən ekoloji problemlər bu gün də bütün bəşəriyyəti narahat etməkdədir və bu da təbiidir. Həyatımız, sağlamlığımız üçün vacib olan saf ekoloji mühit yaratmaq artıq hər bir insanın qarşısına mühüm vəzifələr qoyur. Həmin vəzifələri yerinə yetirmək üçün əhalinin bu istiqamətdə maarifləndirilməsi böyük əhəmiyyət kəsb edir. Ekoloji maarifləndirmə əvvəlcə ailədən başlanır, sonra uşaq bağçasında davam etdirilir, məktəbdə formalaşdırılır. İlkin mərhələlərdə uşağa təbiətin həyatımızdakı rolu, onu qorumağın və zənginləşdirməyin vacibliyi aşılanır. Artıq birinci sinfə yenicə gələn balaca uşaq məktəbdaxili nizam-intizam qaydalarını qorumaqla sinfin, məktəbin, məhəllənin ekologiyasını qorumağın gərəkli olması barədə ilkin bilgiləri öyrənir.

Şagirdlərin ekoloji cəhətdən maariflənməsində ekoloji tərbiyə verən məktəbdənkənar müəssisələrin rolu danılmazdır. Muxtar respublikamızda adıçəkilən müəssisələrə bu mühüm vəzifənin yerinə yetirilməsində hərtərəfli şərait yaradılıb, istiqamətlər müəyyənləşdirilib. Babək Rayon Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzi də öz işini bu istiqamətdə qurub. Mərkəz fəaliyyətini tərtib olunmuş proqram əsasında həyata keçirir. Bu proqram ərazimizin ekoloji xüsusiyyətlərini özündə əks etdirməklə hazırlanıb. Həmin proqramla həm nəzəri, həm də təcrübi məşğələlər səmərəli təşkil olunur, məktəblilərin ekoloji tərbiyəsinin düzgün formalaşdırılıb gücləndirilməsinə xüsusi diqqət yetirilir. Diyarımızın təbiətinin, yeraltı və yerüstü sərvətlərinin məktəblilərə öyrədilməsində “Atmosfer və flora”, “Fauna və ekologiya”, “Əhali və ətraf mühit” adı ilə fəaliyyət göstərən dərnəklər mühüm rol oynayır. Dərnək məşğələlərində ekologiyamızın əsasını təşkil edən flora və faunamız haqda ətraflı məlumat verilir, belə sərvətlərimizin qorunmasının əhəmiyyəti vurğulanır.

Bununla birlikdə mərkəz yay aylarında məktəblilərin yaxın ərazilərdə yerləşən qoruqlara ekskursiyalarını təşkil edir, bu ekskursiyalar zamanı şagirdlər orada bitən dərman bitkilərini toplayır və herbarilər düzəldirlər. Mərkəzdə bir neçə adda təşkil olunmuş sərgilər də ətraf mühitin, ekologiyamızın qorunması məqsədi daşıyır. Bu sərgilər şagirdlərin özləri tərəfindən hazırlanır.

Ekologiyanın qorunması bu gün muxtar respublikamızda ümumxalq işinə çevrilib. Sevindirici haldır ki, bu gün bu istiqamətdə həyata keçirilən tədbirlərdə məktəblilər də yaxından iştirak edir, saf ekoloji mühit yaradılmasına töhfələrini verirlər.

**Ramiz BABAYEV**

## *İdman xəbərləri*

# Futbol üzrə yoldaşlıq görüşü

***Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının təşkilatçılığı ilə Naxçıvan şəhərində “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq” devizi altında futbol üzrə yoldaşlıq görüşü keçirilib.***

Əvvəlcə Həmkarlar İttifaqları Şurasının sədri Sucaxan Novruzov çıxış edərək muxtar respublikada idman sahəsində görülən işlər, gənclərə göstərilən dövlət qayğısı və idmançılarımızın qazandığı uğurlardan danışıb.

Yoldaşlıq görüşündə Həmkarlar İttifaqı Naxçıvan Muxtar Respublika Komitəsinin komandası ilə rayonlar üzrə Birləşmiş Həmkarlar İttifaqı komitələrinin komandası üz-üzə gəlib. Oyun birincilərin 5:3 hesablı qələbəsi ilə yekunlaşıb.

Oyundan sonra futbolçulara diplom və fəxri fərmanlar təqdim edilib.

# Tələbələr arasında birincilik keçirilib

*Muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin oğlan və qız tələbələri arasında “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq” devizi altında ekstremal yürüş üzrə Naxçıvan Muxtar Respublika birinciliyi keçirilib.*

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri və Naxçıvan Muxtar Respublikası Hava və Ekstremal İdman Növləri Federasiyasının birgə təşkilatçılığı ilə Uzunoba Su Anbarı ətrafında keçirilən birincilikdə 100-ə yaxın idmançı mübarizə aparıb.

Yarışın yekun nəticəsinə əsasən, oğlanların mübarizəsində Naxçıvan Dövlət Universitetinin tələbəsi Yuris Allahverdiyev finiş xəttinə hamıdan əvvəl çatıb. Naxçıvan Dövlət Texniki Kollecinin tələbələri Həsən Həsənli və Yusif Abbasov ikinci və üçüncü olublar. Qızlar arasında Naxçıvan Dövlət Texniki Kollecinin tələbəsi Telli Abbasova qalib adını qazanıb. Digər iki pillədə isə Naxçıvan Tibb Kollecinin tələbəsi Gülafət Müslümova və Naxçıvan Dövlət Texniki Kollecinin tələbəsi Aysel Qurbanova qərarlaşıblar.

Qaliblərə Gənclər və İdman Nazirliyinin diplomları, Hava və Ekstremal İdman Növləri Federasiyasının hədiyyələri təqdim olunub.

# İdmançımız dünya birinciliyində yüksək nəticə göstərib

***Tailandın Banqkok şəhərində keçirilmiş yeniyetmələr arasında VII dünya birinciliyinə yekun vurulub.***

Yüzə yaxın ölkədən 445 atletin iştirak etdiyi yarışda Azərbaycan yığmasının üzvləri də çıxış ediblər. 77 kiloqram çəki dərəcəsinin B qrupunda iki atletimiz – Mayıl Şükürlü və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində fəaliyyət göstərən Şərur rayon ağır atletika bölməsinin yetirməsi Tərmenxan Babayev körpücük üzərinə çıxıb.

Tərmenxan Babayev birdən qaldırma hərəkətində 125 kiloqram çəkini ram edərək bu hərəkətdə 4-cü olub. Atletin təkanla qaldırma hərəkətində daha yüksək nəticə əldə edib. O, 3-cü yanaşmasında 155 kiloqram ağırlığı qaldırıb və bu hərəkətdə 2-ci yeri tutub. Bununla yanaşı, ümumilikdə, 280 kiloqram (125+155) nəticə göstərən Tərmenxan B qrupunda ümumi sıralamada birinci yeri tutub.



Məlumat üçün bildirək ki, atletimiz ötən ilin oktyabrında Malayziyanın Penanq şəhərində keçirilən dünya birinciliyində iştirak edib. Aradan qısa müddət keçməsinə baxmayaraq, Tərmenxan Babayev Banqkokda mükəmməl çıxış edərək öz nəticələrini xeyli yaxşılaşdırıb. Belə ki, o, 232 kiloqramlıq nəticəni birdən-birə 48 kiloqram artırıb. Bu, dünya idman arenasında ən yüksək nəticə hesab edilir. Bu nəticə ilə idmançımız 2018-ci ildə Argentinada keçiriləcək Yeniyetmələrin Olimpiadasına lisenziya qazanıb.

# Rayon birinciliklərinin qalibləri müəyyənləşib

***Culfa şəhərinin mərkəzi futbol meydançasının idman bazasında rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Culfa rayon şöbəsinin birgə təşkilatçılığı ilə rayon ümumtəhsil məktəblərinin şagirdləri arasında yaz çağırışına həsr edilmiş “Vətənin müdafiəsinə hazıram” poliatlon çoxnövçülüyünün rayon mərhələsinə yekun vurulub.***

Bu mərhələdə 18 komanda mübarizə aparıb. Yarış əsasnaməyə uyğun olaraq 5 növ üzrə keçirilib. Rayon Gənclər və İdman İdarəsinin rəisi Ümüd Həsənli, Təhsil Şöbəsinin əməkdaşı Səbuhi İbrahimov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Culfa rayon şöbəsinin zabiti, baş leytenant Nurlan Məhərrəmov çıxış edərək yeniyetmə və gənclərə göstərilən dövlət qayğısından, idman sahəsində əldə olunan nailiyyətlərdən danışıblar. Çıxış edənlər gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi istiqamətində görülən işlər və keçirilən tədbirlər haqqında söhbət açıblar.

Yarışda Xanəgah kənd tam orta məktəbinin komandası bütün rəqiblərinə qalib gələrək rayon mərhələsini ilk pillədə başa vurub. Bənəniyar kənd tam orta məktəbinin komandası ikinci, Culfa şəhər 3 nömrəli tam orta məktəbin komandası isə üçüncü olub.

Analoji tədbir Ordubad şəhərindəki “Gənclik” stadionunda da keçirilib. Birincilikdə 20 məktəbdən 100 şagird iştirak edib. Maraqlı və gərgin keçən mübarizə nəticəsində Xanağa kənd tam orta məktəbinin komandası qalib adını qazanıb. Digər iki pillənin sahibləri isə Sabirkənd tam orta məktəbi və Dəstə kənd 1 nömrəli tam orta məktəbin komandaları olublar.

Qaliblər diplom və kuboklarla mükafatlandırılıblar.

**✍ Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı

Baş redaktor müavini: RAUF KƏNGƏRLİ

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 304